Yusifli Vaqifdən Vaqif Yusifliyə

Son otuz ilin ədəbi prosesində, tənqid və ədəbiyyatşünaslığında, elmi mühitində Yusifli Vaqif Əziz oğlunun özünəməxsus yeri, rolu və təsiri, izi vardır. Bu böyük dövrün ümumi elmi-ədəbi manzərəsini Vaqif Yusifliszz tam təsəvvür etmək çətindir. Qeyd olunan marhələnin uğurlarının, müsbət yaşıdığı Vaqif Yusifli-nin sanballı payı, əməyi vardır. Eyni zamanda, həmin dövrün çatınlıkları, problemləri üçün Vaqif Yusifli də məsuliyyət daşıyır. Çünki bu dövr ərzində Vaqif Yusifli sadəcə araşdırma aparmaqla, elmi əsərlər yazıb nəşr etdirməklə öz işini bitmiş hesab etməmişdir. O, qələmi ələ aldığı gündən indiyədək (yaqın ki, bundan sonra da) ədəbiyyatın və ədəbiyyatşünaslıq elminin taleyi ilə, ab-havası ilə yaşamışdır. Artıq ədəbiyyat, tənqid və ədəbiyyatşünaslıq Vaqif Yusiflinin sadəcə məşğuliyyat sahəsi deyildir, taleyidir, həyatının əsas hissəsidir, tərcümeyi-halının mühüm göstəricisidir.

İş elə gətirdi ki, Vaqif Yusifli elmi-ədəbi mühitdə özünü tez təsdiq edə bildi. Fikrimcə, bunun aşağıdakı üç əsas səbəbi oldu. Birincisi, elmi mühitə Yusifli Vaqif kimi gələn bu cavan qələm sahibi hələ aspirantura həyatına qədər dövri mətbuatda elmi, bədii və publisistik yazılarla ara-sıra çıxış etmişdi, müəyyən dərəcədə tanınırdı. Aspirantura illərində də yalnız seçdiyi dissertasiya mövzusu ətrafında çalışmaqla kifayətlənməridi. Həmin illərdə müxtəlif kitablar haqqında yazdığı resenziyalar, ayrı-ayrı problemlərə həsr olunmuş elmi konfranslarda və seminarlarda iştirak yazılarının çıxışları onu hər hansı bir aspirantdan qat-qat çox tanıdırdı. Yəni qeyri-adi çalışqanlıq, yorulmadan say göstərmək Yusifli Vaqifin özünütəsdiqinda mühüm faktor idi. Fikrimcə, indi də mütalıə etmək, yazmaq və nəşr olunmaq baxımından Vaqif Yusifli ilə müqayisə olunacaq ədəbiyyatçı, qələm sahibi tapmaq asan deyildir.

İkincisi, Yusifli Vaqifin seçdiyi namizədlik dissertasiyasının mövzusu səksəninci illərdə çox populyar və aktual idi. Onun "Müasir Azərbaycan nəsrində konflikt və xarakter" mövzusunun o zaman ədəbi mühitdə az qala günəş kimi parlayan altmışıncıların — Anarın, Elçinin, Əkrəm Əylislinin və İsi Məlikzadənin yaradıcılığına həsr olunması da Yusifli Vaqifin qısa müddətdə tanınmasına, diqqət mərkəzinə çəkilməsinə rəvac vermişdi. Vaqif həmin ədəbi nəslin səksəninci illərdəki ilk tədqiqatçılarından biri idi. Və o zaman Vaqif Yusifli seçdiyi mövzuda yazdığı maqalələra görə elmi-ədəbi mühitdə söz və ağırlıqlı sözünün olan həmin ədəbi nəslin dəstəyini qazana bildi. Yazıçı-tənqidçi Elçin Əfəndiyevin Vaqif Yusiflinin namizədlik dissertasiyası haqqında opponent rəyini "Ədəbiyyat qəzeti"nə geniş məqalə kimi çap etdirməsi Yusifli Vaqif Əziz oğlunu həmyaşıdı olan aspirantlardan və gənc elmlər namizədlərindən fərqləndirdi. Çünki o zaman namizədlik (hətta doktorluq) dissertasiyaları haqqında rəylərin mətbuatda çap olunması nadir hadisələrdən sayılırdı. Cəmi-cümlətanı iki-üç belə məqalə xatırlamaq mümkündür. Həmin məqalələrdən birini da marhum professor Mehdi Məmmədovun Elçin Əfəndiyevin namizədlik dissertasiyası haqqında çap etdirdiyini xatırlayıram. O məqalə da opponent rəyi idi. Heç şübhəsiz, Elçinin məqaləsi Yusifli Vaqifin elmi taleyində mühüm rol oynadı. Bundan başqa, altmışıncıların daha bir istedadlı nümayəndəsi Əkrəm Əylisli da Yusifli Vaqifə xüsusi diqqət yetirdi və onu Nizami adına Ədəbiyyat İnstitutunun çoxsaylı aspirantlarının sıralarından seçib "Azərbaycan" kimi nüfuzlu bir jurnalın "Tənqid və ədəbiyyatşünaslıq" şöbəsinin müdiri vəzifəsinə irəli çəkdi. Beləliklə, altmışıncıdan tədqiqat işi yazan, namizədlik dissertasiyası müdafiə edən, məqalələr çap etdirən, elmi konfranslarda söz açan Yusifli Vaqif altmışıncıların dəstəyi ilə səksəninci illər elmi-ədəbi mühitinin ön mövqeyinə, diqqət mərkəzinə çəkildi. "Nəsr: konfliktlər, xarakterlər" adlı monoqrafiyası (1986) ilə o, artıq Yusifli Vaqifə, neca deyərlər, vidalaşdı və hamişəlik olaraq Vaqif Yusifli kimi yolunu davam ettirdi.

Altmışıncıların Vaqif Yusifliyə bu qədər qayğı və yanaşmalarının bir səbəbi həmin illərdə hələ da elmi-ədəbi mühitdə onların yaradıcılığına ikili münasibətin mövcud olduğu dövrdə Vaqif Yusiflinin iri həcmli namizədlik dissertasiyası səviyyəsinə bu məsələ barədə müsbət tərəfdən tərəzinin gözünə ağır bir daş atı bilməsi idi. İkinci tərəfdən isə insaf xatirinə demək lazımdır ki, Vaqif Yusiflinin "Müasir Azərbaycan nəsrində konflikt və xarakter" mövzusunda müdafiə etdiyi namizədlik dissertasiyası yüksək elmi-nəzəri səviyyəsi ilə diqqəti cəlb edirdi. Bu dissertasiya Azərbaycan ədəbiyyatşünaslığı elmina gəncə, istedadlı, zəhmətkeş və perspektivli bir tənqidçi və ədəbiyyatşünasın gəldiyi-ni bayan etdi. Hətta dissertasiya şurasına sədrlik edən akademik Məmməd Cəfər Cəfərovun da Vaqif Yusiflinin əsəri haqqında dəqiqə-bəzən hikmət söyləməsi onun imicini daha da artırdı, elmi mühitdə şimşək kimi çaxdı. Fikrimcə, Məmməd Cəfər müəllim kimi çox görkəmli və mötəbər bir alimin Vaqif Yusifli haqqında yüksək elmi söz deməsi onun özünütəsdiqinin üçüncü əsas mənbəyi sayılmalıdır. Bununla da Yusifli Vaqif mərhələsi bitdi, Vaqif Yusiflinin dövrası başlandı. Sonraki illərdə Vaqif Yusifli çalışqan, zəhmətkeş, sadə, qayğıkeş və istedadlı bir elm adamı kimi başlanğıc mərhələdə qazandığı yüksək imici nəinki qoruyub saxladı, yazıb çap etdirdiyi çoxsaylı sanballı məqalələr və əhəmiyyətli kitablarla, mötəbər yığıncaqlarda — qurultaylarda, yaradıcılıq müşavirələrindəki dərin mazmunlu, düşünülmüş çıxışları ilə daha da artırdı, inkişaf etdirdi. Bəna gördür ki, hələlik elmlər namizədi olmasına baxmayaraq, onun adını heç tərəddüd etmədən respublikamızdakı ən mahsuldar elmlər doktorları ilə bir cərgədə çəkmək heç kəsi qətiyyən təəccübləndirmir.

Vaqif Yusifli ilk növbədə tanınmış ədəbiyyat tənqidçisidir. Ədəbi prosesin faktları və hadisələri, ədəbiyyatımızın uğurları və kəsirləri, problemləri və vəzifələri Vaqif Yusiflinin maqalələrinə aydın və konkret şəkildə öz əksini tapır. Hətta Yusifli bir yaradıcılıq sahəsi kimi ədəbi tənqidin də qayğıları və gedişatı onun təhlillərinə və araşdırmalarına özünəməxsus yer tutur. Artıq uzun illərdir ki, ədəbi tənqid haqqında ən sanballı sözlərə-nə yanlarını sırasında Vaqif Yusiflinin fikirləri və mülahizələri mötəbər, tutarlı, əhəmiyyətli söz kimi səslənməkdədir. İllər keçdikcə Vaqif Yusifli Azərbaycanda ədəbi tənqid sahəsinin ən apancı simalarından biri kimi görünür. Ustad tənqidçilərin ədəbi tənqid üzrə həmin boşluğu doldurmağa uğurla xidmət edən, ustadlanın yerini boş qoymamağa çalışan, əsas tənqidçi missiyasını şərəflə və fədakarlıqla yerinə yetirən tənqidçünas səviyyəsində nəzəri cəb edir. İndiki halda hətta bir çox maqamlarda Azərbaycan ədəbi tənqidi, yaxud çağdaş tənqidçi anlayışları hamıdan çox Vaqif Yusifliyə aid olur. O, artıq istəsə də, istəməsə də milli ədəbi tənqidin çətin, məsuliyyətli və şərəfli yükünü daşımalıdır. Və görükən budur ki, Vaqif Yusifli həmin missiyanı böyük vətəndaşlıq məsuliyyəti ilə həyata keçirməkdə davam edir.

Nəzərə çarpan bir cəhət də bundan ibarətdir ki, Vaqif Yusiflinin adəbi tənqidi əsərlərinə elmilikdə publisistika vahidində çıxış edir. Doğrudur, bu maqamlarda elmin payı həmişə publisistikanın payından çox olur. Görünür, dövri mətbuatla bağlı olması onun publisistikadan da yan keçməsinə, xilas olmasına tam imkan vermir.

Buna baxmayaraq, Vaqif Yusiflinin tənqidində hər iki tərəfin, hər iki argumentin özünəməxsus yeri, bir-birini inkar etməyən, lakin tamamlayan funksiyası vardır. Yusiflinin ədəbi-tənqidi əsərlərində məsələnin qoyuluşu və gedişatı, problemlərin şərhi bir qayda olaraq elmi-nəzəri baxımdan izah və həll olunur. Publisistika isə Vaqif Yusifliyə yalnız bəzi təfərrüatları ifadə etməkdə, ekskurslardan və haşiyələrdən faydalanmaqda yararlı olur. Nəticədə həm dayarlı, sanballı, həm də oxunaqlı ədəbi-tənqidi əsərlər meydana çıxır. Bütün bunlara gördür ki, Vaqif Yusiflinin ədəbi-tənqidi maqalələri təkcə həmin maqalələrin-adi olduğu yazıçılar, yaxud ədəbiyyatşünaslar tərəfindən deyil, mütləq əksəriyyət tərəfindən maraqla oxunur.

Bir cəhəti də ayrıca qeyd etməyi lazım bilirəm. Vaqif Yusifli uzaq yanaşmalarla dəyərləndirməyi bacaran tənqidçidir. Ədəbi tənqid hap-gop, yalan-palan, qısas-filan deyil, elmdir. Vaqif Yusifli bu qəbildən olan hərtərəfli və obyektiv tənqidin təkcə daşıyıcısı deyil, artıq həm da tanınmış yaradıcısıdır.

Ədəbi tənqidlə ədəbiyyatşünaslığın digər sahələri arasında möhkəm Çin səddi çəkməyin mümkün olmadığını həm da Vaqif Yusiflinin elmi fəaliyyəti bir daha təsdiqləyir. Tənqidçi Vaqif Yusifli-nin xalq şairləri Rəsul Rza, Məmməd Araz, Fikrət Qoca və xalq yazıçısı Elçin, həmçinin gözəl şairimiz Musa Yaqub haqqındakı kitablarında, eləcə da Süleyman Rüstəm, Müşfiq, İlyas Əfəndiyev, Ənvar Məmmədxanlı, Süleyman Rəhimov, Mirzə İbrahimov, Mehdi Hüseyn, Əbülhəsən, Böyükağa Qasımzadə, Bəxtiyar Vahabzadə, Nəbi Xəzri, Hüseyn Arif, Qabil, Əli Kərim, Sərdar Əsəd, Yusif Səmədoğlu, Əkrəm Əylisli, Sabir Əhmədli, İsa Hüseynov, Madinə Gülgün, Fikrət Sadıq, İslam Səfərli, Bahaş Azəroğlu, Vaqif Səmədoğlu, Fərman Kərimzadə, Cabir Novruz, Mastan Qunar, Sabir Azəri, Əlibəla Hacızadə, Ramiz Rövşan, Abbas Abdulla, İsa İsmayılzadə, Ələkbər Salahzadə, Sabir Rüstəmxanlı, Çingiz Əloğlu, Nüsrət Kəsəmənli, Ağamalı Sadıq, Məmməd Oruc, Afaq Məsud, Firuzə Məmmədli, həmçinin 1980-2000-ci illərdə ədəbiyyata gələn iki ədəbi nəslin onlarla nümayəndəsi haqqında, onların yaradıcılığı barədə maqalələrində, ədəbi portretlərində ədəbiyyatşünaslıq elminin ayn-ayn sahələrinin ədəbiyyat tarixçiliyinin, ədəbi tənqidin və ədəbiyyat nəzəriyyəçiliyinin əlamətlərini görməmək mümkün deyildir. İstər-istəməz adları çəkilən sənətkarların həyatı və mühitinə dair məlumatlar verən, onların yeri şəldikcə tərcümeyi-hal faktlarından və müəsirlərindən söz açan müəllif ədəbiyyat tarixçiliyinin prinsiplərinə əməl edir Yaxud, istinad etdiyi sənətkarların ayn-ayn əsərlərinin janr xüsusiyyətləri, təsvir və ifadə vasitələrindəki orijinallıq bərəsində də yazmalı olan Vaqif Yusifli ədəbiyyat nəzəriyyəsi məsələlərinə də baş vurmalı olur. Bununla belə, Vaqif Yusifli ədəbi tənqid sahəsinda daha peşəkar və professionaldır. Ədəbiyyatşünaslıq elminin müxtəlif istiqamətlərindən hətta sintez hallarda faydalanmağı bacaran Vaqif Yusifliinin üstünlüyü, fərdi özünəməxsusluğu müraciət etdiyi mövzulara ədəbi tənqid müstəvisinə yanaşanda daha qabaraq şəkildə diqqəti cəlb edir. Yəni artıq Vaqif Yusifli yaxşı bilir ki, yaxşı kəmdən yaxşıra-yazısın, hənim məsələni, yaxud şəxsiyyəti yüksək səviyyədə ədəbi tənqid prizmasından mənalandırmağın, tahlil edib dəyərləndirmənin öhdəsindən xüsusi professionalıqla gəlməyi bacarır.

Vaqif Yusifli üçün bir peşəkar tənqidçi kimi ədəbiyyatın nəsr və poeziya qolları daha doğmadır. O, professional nəsr tənqidçisi olmaqla yanaşı, eyni səviyyədə də peşəkar poeziya tənqidçisidir. Vaqif Yusifli uzun illər müasir Azərbaycan romanının müxtəlif problemlərinə bir çox maqalələr nəşr edib, o poeziyanın ayn-ayrı illərdəki inkişafını, nailiyyət və qüsurlarını əks etdirən sanballı icmal maqalələr yazıb. Vaqif Yusifliinin illərdən bari nəsrin problemlərinə dair yazdıqlarını bir yerə yığsaq, bir neçə cildlik kitab alınar. Və ya Vaqif Yusifliinin poeziyaya dair indiyədək çap etdirdikləri həcm etibarılə bir neçə sanballı doktorluq dissertasiyası üçün yetərli sayılıa bilər. Bütün bunların müqabilində indiyədək Yusifli Vaqif Əziz oğlunun doktorluq dissertasiyası müdafiə etməməsi heç də təəccüblü görünmür. Yaxından tanıyanlar yaxşı bilirlər ki, Vaqif Yusifli üçün elm, ədəbiyyat, fikri yaxud elm ad, rütbə almaqdan çox sevdiyi, ürəkdən bağlandığı, hayatının üzvi tərkib hissəsinə çevrdiyi professional yaradıcılıq sahəsidir. Bununla belə, Azərbaycan nəsrinin, yaxud şeirizin yaradıcılıq problemlərinin hər hansı birindən doktorluq dissertasiyası yazıb müdafiə etsə, nəinki heç kəsi təəccübləndirməz, əksinə, həmkarları "niyə Vaqif Yusifli hələ indiyə qədər elmlər doktoru olmamişdi ki?" —deya heyratlanarlar. Marhum akademik, görkəmli ədəbiyyatşünas Kamal Talıbzadə — Vaqif Yusifliiya mötəbər elmi konfranslarda söz verəndə hamişə onu "Filologiya elmləri doktoru" kimi təqdim edərdi. Və yaxşı olar ki, Vaqif Yusifli — manim də əziz dostum Kamal müəllimin bu vəsiətini unutmasın. Bişim fikrimizcə, Vaqif Əziz oğlu çoxlılık və çoxcəhətli, məhsuldar, səmərəli elmi fəaliyyəti ilə elmlər doktoluğu üçün müəyyən olunmuş hədlən çoxdan aşmış, keçmişdir. O, hələ ki, filologiya elmləri doktoru deyildir, lakin xidmətləri, yorulmaz ardıcıl fəaliyyəti, professionallığı neçə-neçə elmlər doktorlarından daha çox fərqlənən tanınmış alimdir.

"Azərbaycan" jurnalı Vaqif Yusifliinin həyatında, yaradıcılığında xüsusi yer tutur. Baş redaktorun müavinliyinə qədər çıxa-rəfli bir yol keçib. İllərdən bari "Azərbaycan" jurnalının nüfuzu, nüfuzu, səviyyəsini, klassik imicini qoruyub saxlamasında və daha da inkişaf etdirməsində Vaqifin danılmaz zəhmətləri vardır. Hətta Vaqif Yusifliinin "Azərbaycan" jurnalındakı çoxsaylı yazılarından çıxış edərək deya bilərik ki, ədəbi tənqid sahəsində ayrıca bir "jurnal tənqidi" jannın da formalaşdığı müşahidə olunur. Vaqif Yusifliinin şərti olaraq "jurnal tənqidi" adlandırdığımız məqalələri həmçnin genişliyi, konkret problemlərə həsr olunması çağırışla səslənən məsələlərin tənqidi təsbitidir. Fikrimizca, artıq Vaqif Yusifliinin özü haqqında da ən azı "jurnal tənqidi" sviyəsində xüsusi bir elmi yaziya ehtiyac duyulur. Onun çoxlılık faliyyəti bundn yeksəsinə də materail vərə bilər.

Vaqif Yusifliinin Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi fəxri adını qazanmasında da "Azərbaycan" jurnalının payı çoxdur. Hətta "Məmməd Araz dünyası" adlı monoqrafiyasına görə layiq görüldüyü Məmməd Araz ədəbi mükafatına, Rəsul Rza yaradıcılığı ilə bağlı qələmə alıdığı silsilə maqalələrə görə aldığı Beynəlxalq Rəsul Rza mükafatına nail olmasında da "Azərbaycan" jurnalında əldə etdiyi təcrübənin, yiyələndiyi qələm vərdişlərinin rolunu etiraf etmək lazım gəlir.

Vaqif Yusifliinin Azərbaycan ədəbiyyatında ən çox sevdiyi sənətkar Məhəmməd Əfəndiyev, O, Füzulinin qəzəllərinin çoxunu əzbərdən bilir, Füzuli qəzəllərindəki bəzi müəmmaların açmalan ətrafında Vaqif Yusifliinin söhbətləri da cəlbedicidir. Lakin hələ ki, bir maqala istisna olunmaqla Füzuli haqqında Vaqifin sanballı bir əsəri gözə dəymeyib. Heç şübhə yoxdur ki, Vaqifin yazmadıqları, lakin yazmaq istədikləri başqa mövzular, mətləblər az deyildir. Vaqif Yusifliinin indiyədək yazdıqları kimi, bundan sonra yazacaqları da elmimizi, ədəbiyyatımızı, mənəviyyatımızı, ədəbi mühitimizi daha da zənginləşdirməyə xidmət edəcəkdir.

Mən burada Vaqifə otuz illik dostluğumdan da söz aça bilərdim. Qısaca bunu deyə bilərəm ki, bu dostluqla mən fəxr edirəm. Bu zəif, çəlimsiz vücudda necə bir yanğı var, necə bir sevgi var, neca atəşin bir ruh var, bax, onu mən bilirəm.

Qeyd etdiyim kimi, Vaqif Yusifli elmi-tənqidi fəaliyyətə Yusifli Vaqif əziz oğlu kimi başlamışdır. Amma elmi-ədəbi ictimaiyyətimiz çoxdandır ki, onu Vaqif Yusifli kimi tanıyır. Vaqif Yusifli artıq Azərbaycanda altmış yaşı haqlamış, tanınmış, təsdiq və etiraf olunmuş tənqidçi kimi qabul olunur. Və mən Vaqif Yusifliyə daha parlaq yaradıcılıq uğurlan arzulayıram.

İsa HƏBİBBƏYLİ
akademik